**Orucoğlu Z.** Əbədi Vətən sevgisi // Respublika. - 2024. - 30 iyul. - **№ 159**. - S. 10.

**44 günlük haqq savaşımızda öz qanı bahasına torpağı Vətən edən Azərbaycanın qeyrətli oğulları sırasında Hüseyn Vətənxan oğlu Zeynallının adı iftixarla çəkilir.**

Hüseyn Zeynallı Cəlilabad torpağında boya-başa çatıb. Uşaq yaşlarında qəlbində doğma Azərbaycana ilahi bir sevgi yaşadan Hüseyn böyüdükcə onun nümunəvi davranışına, əxlaqına el-obada heyran qalıblar. Hər əməlində xalq, Vətən üçün layiqli övlad olduğunu sübut edib. O, idmana həvəs göstərib, boksla məşğul olub və qatıldığı yarışlarda həmişə yüksək yerlər tutub. Dəfələrlə zona turnirlərində qələbə qazanıb. 9-10-cu sinifdə oxuduğu zaman iki dəfə respublika çempionu olub.

2011-ci ildə ordu sıralarına gedib. Evdən çıxanda yaxınlarına erməni dığalarına qarşı son nəfəsinə qədər vuruşub Vətənin qisasını alandan sonra evə üzüağ qayıdacağını deyib.

Hüseyn idmançı olduğu üçün Zaqatalada Daxili Qoşunlarda xidmətə başlayıb. İlk gündən nizam-intizamı, təlimlərdə fəallığı onu əsgər və zabitlərin sevimlisi edib. Hər bir şəraitdə Vətənini göz-bəbəyi kimi qoruyub, uğrunda canını belə qurban verməyə hazır olub. Əsgərliyin son aylarını Şəkidə keçirən Hüseyn Vətən torpaqlarının yağı tapdağı altında qalması ilə heç cür barışa bilmir. Odur ki, düşməndən layiqincə qisas almaq arzusu onu orduya bağlayıb. Üç il Daxili Qoşunlarda xidmət etdikdən sonra Milli Orduya göndərilib. Nəyin bahasına olursa-olsun cənnət məkan yurd yerimiz Qarabağı tezliklə mənfur düşməndən azad etməkdən ötrü hərb sənətinə mükəmməl yiyələnib.

İkinci Qarabağ müharibəsi başlayanda ilk gündən Hüseyn ölüm-dirim savaşına girib. Füzulidə gedən ağır döyüşlərdə düşmənə qan uddurub, onların canlı qüvvəsini, neçə-neçə hərbi texnikasını məhv edib.

Hüseynin atası deyir: - 2020-ci il sentyabrın 30-da Füzulinin Yuxarı Seyidəhmədli kəndi istiqamətində qızğın döyüş gedirdi. Burada torpaq uğrunda can qoyub və mərdliklə döyüşən qəhrəmanlardan biri də oğlum Hüseyn olub. Çox çalışdıq onunla əlaqə saxlaya bilmədik. Artıq hiss edirdim ki, boğuluram. Daha sonra yaxınlarım qapımıza gəlib oğlumun şəhid olduğunu dedilər. Hüseyni oktyabrın 1-də böyük izdihamla kəndimizdə dəfn etdik. Döyüş yoldaşları bir neçə gün öncə bizə gəlmişdi və dedilər ki, Hüseyn silahı maşından idarə edirdi, amma həmin vaxt yerinə köməkçisini oturdaraq yerə düşüb üçrəngli bayrağımızı sinəsinə qoyub və irəli

gedib. Yolda bayraq yerə düşüb və döyüşçü yoldaşlarına deyib ki, bayrağı götürün. Onlar bayrağı götürəndən sonra bir də baxıblar ki, Hüseyn və döyüş yoldaşı şəhid olub".

Bəli, torpaq şəhid qanı ilə Vətən olur. Bu müqəddəs yolu seçənlər isə heç vaxt ölmürlər. Cəlilabadın qəhrəman oğlu Hüseyn kimi. Milyonların ürəyində özünə əbədi məkan quran Vətən sevdalısı ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə, "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medallarına layiq görülüb.